# İstedadlı qələm sahibi

**Mütəfəkkirlər yazırlar ki, həyatda ən böyük sevinc özünü insanlara yaxın və lazımlı hiss etməkdir. İstedadlı qələm sahibi, sədaqətli dost, qayğıkeş ailə başçısı Rafiq Ələkbərov da belə şəxsiyyətlərdən idi.**

Ələkbərov Rafiq Abdulla oğlu 1939-cu il mayın 17-də Qəbələ rayonunun Kürd kəndində ziyalı ailəsində dünyaya göz açmışdı. Qəbələ şəhər orta məktəbini, 1963-cü ildə isə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Jurnalistika fakültəsini bitirib. Əmək fəaliyyətinə 1956-cı ildə Qəbələ rayon qəzetində ədəbi işçi kimi başlayıb. 1963-1965-ci illərdə "Sovet kəndi" qəzeti redaksiyasında korrektor, ədəbi işçi, xüsusi müxbir, məsul katib və şöbə müdiri vəzifələrində çalışıb.

1977-1979-cu illərdə Moskvada Sov. İKP MK yanında İctimai Elmlər Akademiyasında təhsil alıb. Bakıya qayıtdıqdan sonra Ümummilli Lider Heydər Əliyevin sərəncamı ilə Azərbaycan Respublikası Kommunist Partiyası Mərkəzi Komitəsində təlimatçı işinə qəbul edilib. 1986-1992-ci illərdə Mərkəzi Komitənin rəsmi orqanı olan "Təşviqatçı" ("Dialoq") jurnalında baş redaktor işləyib. 1989-cu ildə jurnalist fəaliyyətindəki uğurlara və mətbuatın inkişafına verdiyi töhfələrə görə "Əməkdar jurnalist" fəxri adına layiq görülüb.

1992-2000-ci illərdə Nizami rayon İcra Hakimiyyəti başçısının köməkçisi, Ərazi hakimiyyət orqanları ilə iş şöbəsinin müdiri, Vergilər Nazirliyinin kadr siyasəti və hazırlığı idarəsində baş mütəxəssis vəzifələrində çalışıb. 2001-ci il iyun ayının 21-də haqqa qovuşub, doğulub böyüdüyü kənddə torpağa tapşırılıb. Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyində sənədləri, təltifləri, yaradıcılığını təcəssüm etdirən eksponatlardan ibarət guşə yaradılıb.

**El ağsaqqalı, uzun illər müxtəlif rəhbər vəzifələrdə çalışmış Əhməd Əhmədzadə** deyir: "Rafiqlə 1977-ci ildən tanışıq. O vaxtlar Moskvada İctimai Elmlər Akademiyasında oxuyurdum. May ayında Azərbaycandan gələn növbəti qrupda Ələkbərov da vardı. İlk baxışdan hamıdan seçilirdi; oturuşu-duruşu, zahiri görkəmi, boy-buxunu ilə əsl Azərbaycan kişisi idi. Üz-gözündən nur yağırdı. Dərhal diqqətimi cəlb elədi, ilk günlərdən söhbətimiz tutdu, dostlaşdıq.

Rafiq mehriban, dostcanlı, dövlətə, Vətənə sədaqətli idi. Cəmiyyətdə gedən proseslərə biganə qalmazdı. Azərbaycanın dərd-səri, Qarabağ problemi ürəyində ağır yükə çevrilmişdi. Hamıya yox yerdən əl tutar, kömək edər, heç kimdən heç nəyi əsirgəməzdi.

Torpağa, yurd-yuvaya bağlılığını Qəbələdə, doğma kəndində dəfn olunması vəsiyyəti də təsdiqləyir. Pərvazlandığın, qanadlandığın yuvaya dönməyin xoşbəxtliyi hər adama qismət olmur".

Ən məsuliyyətli sahədə və dövrdə Rafiq Ələkbərovla çiyin-çiyinə işləyənlərdən bir də **xalq şairi Vahid Əzizdir.** Vahid müəllim əziz dostu haqqında danışarkən bir çox maraqlı məqamlara işıq tutdu: "Tanışlığımız 1979-cu ildən - Bakı şəhər Partiya Komitəsində təlimatçı işlədiyim dövrdən başlayır. Şöbə müdiri dedi ki, Rabitə Nazirliyində qəzetlərə abunə yazılışı ilə bağlı tədbir keçirilir. Rafiqi ilk dəfə orada gördüm. İkinci görüşümüz 1982-ci il iyunun 11-də oldu. Həmin gün Azərbaycan KP MK-ya təbliğat-təşviqat şöbəsinə işə götürülmüşdüm, bununla da dostluğumuzun əsası qoyuldu.

Rafiq Ələkbərov MK-da işlədiyi dövrdə əvvəl Dövlət Teleradio Komitəsini, sonra respublika qəzetləri və rayon mətbuatını kurasiya edirdi. Son dərəcə obyektiv, məsuliyyətli idi, bircə dəfə görmədim ki, hər hansı tapşırığı başdansovdu yerinə yetirsin. İti yaddaşı vardı. Azərbaycan dilini mükəmməl bilir, rusca yaxşı danışırdı. Ana dilimizdə yazdığı sənədi, tərcümə etdiyi ən mürəkkəb yazını yoxlamağa ehtiyac qalmazdı. Təmkini sayəsində ən qəliz situasiyaları aramla sabitləşdirməyi, gərgin anlarda hamımızı sakitləşdirməyi bacarırdı. Prinsipiallığı da öz yerində.

1987-ci ilin sonlarında - erməni separatçılarının Qarabağ iddialarını açıq müstəviyə keçirdikləri, süni şəkildə şişirtdikləri vaxtlarda gərgin iş rejimi başladı: Hədyanları cavablandırmaq, dünya ictimaiyyətini obyektiv məlumatlandırmaqdan ötrü xeyli materiallar tərcümə edib hazırladıq, arxiv sənədlərini ortaya çıxardıq, Moskvadan gələn ermənipərəst ruslarla çənə-boğaza girdik... Xalqımızın tarixi keçmişinin, zülmə qarşı haqlı mücadiləsinin işıqlandırılmasında, nəsillərdən-nəsillərə ötürülməsində Rafiqin xidmətləri olduqca çoxdur. Nə qədər tədbirin keçirilməsini təmin etdik. "Molla Nəsrəddin" jurnalının birinci cildi məhz sovet dövründə "Azərbaycan" nəşriyyatının poliqrafiya bazasında işıq üzü gördü. Bu nəşrlə bağlı Rafiqin yuxusuz gecələri çox olub. Müqəddəs kitabımız Qurani-Kərimin ana dilimizdə çapına hazırlıq işləri də bizim vaxtımızda başlandı. O zaman belə bir nəşr üçün Moskva, Sov. İKP icazə verməliydi. Həmin məktubun ilk variantını da Rafiqlə çalışan komanda hazırladı.

Qarabağ uğrunda mübarizə mövzusunda başqa bir vacib tərcüməmiz erməni separatçılarının bəd əməlləri barədə idi. Zori Balayanla Silva Kaputikyan Mixail Qorbaçovun qəbuluna gedib ağızlarına gələn sərsəmlikləri onun beyninə yeritmişdilər. S.Kaputikyan İrəvan televiziyası ilə çıxışında qondarma erməni mifi zəminində nifaq toxumunu necə səpməsindən, qarşıdurmanı necə körükləməsindən həyasızcasına danışırdı. Həmin söhbətin lent yazısını ermənicədən dilimizə çevirdim, Rafiq isə nöqtə-vergülünü düzəldib makinaya diktə elədi. Bu, sonradan bir sənəd, fakt, arqument kimi ümumi işlərimizdə çox gərək oldu".



**Asiman müəllim** Rafiq Ələkbərovu kövrək xatirələrlə yad etdi və bu gün həyata baxışlarına, tutduğu mövqeyə, Vətənə, xalqa xidmətinə, insanlara sevgisinə görə atasına minnətdar olduğunu bildirdi:

"2001-ci il fevralın 5-7-də keçirdiyim hissləri ömrümün sonuna qədər unuda bilmərəm. Həmin soyuq qış günlərində həkimlər atamın ağır xəstə olduğunu deyəndə boğazım qurudu, inanmaq istəmirdim ki, mənə hamıdan əziz olan adamı itirərəm. Bir möcüzə baş verəcəyi ümidi ilə yaşayırdım. Çox təəssüf ki, dörd ay sonra zalım ölüm bu ümidlərimi puça çıxardı... Onunla birgə keçirdiyimiz xoşbəxt günlər, xüsusən uşaqlıq illərinin xatirələri gözümün önündən getmir. Atam Ali Partiya Məktəbində oxuyanda mən birinci sinifə gedirdim, Moskvada kirayədə qalırdıq. Bizi tez-tez şəhərin görməli yerlərinə aparar, tarixi abidələrlə zəngin məkanları gəzdirərdi. Sonra Bakıya qayıtdıq, 1979-cu ildə Mərkəzi Komitədə işə düzəlməsinə bir övlad kimi çox sevindim. Orta məktəbi bitirib atamın məsləhəti ilə sənədlərimi Dövlət İqtisad Universitetinə verdim və qəbul olundum. Təhsilimi, hərbi xidmətimi müvəffəqiyyətlə başa vurdum, işə düzəlməyimə də köməklik göstərdi. Bu günədək həyatda qazandığımız hər şeyə görə atamıza borcluyuq. Müqəddəs ruhunu daim başımın üstündə hiss edirəm. Müdrik məsləhətləri, məntiqli zarafatları, təkidli tapşırıqları hafizəmdən silinmir".

Dahi Balzak həyatı beşiklə məzar arasındakı sınaq müddəti sayırdı. Mərhum ustadımız da 61 illik ömründə bu imtahanlardan böyük məharətlə, alnıaçıq, üzağ çıxdı. Əməkdar jurnalist Rafiq Ələkbərovun həyat yoluna nəzər salanda, haqqında deyilən xoş sözləri dinləyəndə düşünürsən ki, doğrudan da Vətən, xalq, el-oba üçün yaşayanlar heç zaman ölmürlər. Və neçə qərinə keçir-keçsin, daim sevgi, rəhmət, ehtiramla xatırlanacaqlar...

**Qurban MƏMMƏDLİ.**

Respublika .- 2025.- 20 iyul (№ 148).- S.10.